*UOT 372.864*

***Reyhan Tapdıq qızı Hacızadə***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0000-0002-2287-2905*
*https://doi.org/10.69682/arti.2024.91(6).21-24*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN EKOLOJI TƏRBİYƏSİNDƏ COP29 TƏDBİRİ MOTİVASİYA VASİTƏSİ KİMİ

***Рейхан Тапдыг кызы Гаджизаде***
*преподаватель Азербайджанского Государственного*
*Педагогического Университета,*
*доктор философии по педагогике*

# МЕРОПРИЯТИЕ COP29 КАК СРЕДСТВО МОТИВАЦИИ В ЭКОЛОГИЧЕСКОМ ВОСПИТАНИИ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

***Reyhan Tapdig Hajizade***
*teacher at the Azerbaijan State Pedagogical University,*
*dictor of philosophy in pedagogy*

# COP29 EVENT AS A MOTIVATION TOOL IN ENVIRONMENTAL EDUCATION OF PRIMARY SCHOOL STUDENTS

**Xülasə:** Məqalədə COP29 tədbirinin ölkəmizdə keçrilməsini zəruri edən şərtləri verilmişdir. Eyni zamanda, COP29 tədbirinin siyasi əhəmiyyəti, elmi-praktik əhəmiyyəti, Azərbaycanı dünyaya daha yaxından tanıdan iqtisadi göstəricilər qeyd olunmuşdur. Tədbirin ibtidai sinif şagirdlərinin ekoloji mədəniyyətinin formalaşdırılmasında, onlarda problemin həllinə yönələn motivasiyasının yaradılmasında rolu göstərilmişdir.
***Açar sözlər:*** *COP29, ekologiya, şagird, motivasiya, yaşıl təbiət, tərbiyə, mədəniyyət*

***Резюме:*** В статье приведены необходимые условия для проведения мероприятия COP29 в нашей стране. В то же время приводятся политические, научно-практические и экономические показатели мероприятия COP29, которые делают Азербайджан более знакомым миру. Указано роль данного мероприятия в формировании экологической культуры учащихся младших классов, в создании у них мотивации к решению проблемы.
***Ключевые слова***: *COP29, экология, студент, мотивация, зеленая природа, воспитание, культура*

**Summary:** The article presents the necessary conditions for holding the COP29 event in our country. At the same time, it presents political, scientific, practical and economic indicators of the COP29 event, which make Azerbaijan more familiar to the world. It indicates the role of this event in the formation of environmental culture of primary school students, in creating their motivation to solve the problem.
***Keywords:*** *COP29, ecology, student, motivation, green nature, upbringing, culture*

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (ing. Framework Convention on Climate Change, UN FCCC) – Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) atmosferdə istixana qazlarının konsentrasiyalarını sabitləşdirməklə "insanların iqlim sisteminə təhlükəli müdaxiləsi" ilə mübarizə aparmaq üçün ölkələr arasında beynəlxalq müqavilədir (1).

Çərçivə Konvensiyasının son məqsədi onun 2-ci maddəsində: "atmosferdə istixana qazlarının konsentrasiyalarının iqlim sisteminə təhlükəli antropogen [yəni insan səbəbli] müdaxiləsinin qarşısını alacaq səviyyədə sabitləşdiril-

məlidir" şəklində göstərilib (1). Müqavilə ekosistemlərin iqlim dəyişikliyinə təbii şəkildə uyğunlaşmasına, qida istehsalının gücləndirilməsini təmin etməyə, iqtisadi inkişafın davamlı şəkildə davam etməsinə imkan verən davamlı elmi araşdırmalara və müntəzəm görüşlərə, danışıqlara və gələcək siyasət sazişlərinə çağırır.

Müqavilə imzalayan dövlətlərin üç kateqoriyası üçün müxtəlif məsuliyyətlər müəyyən edilib. Bu kateqoriyalar inkişaf etmiş ölkələr, xüsusi maliyyə öhdəlikləri olan inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələrdir. Əlavə 1 ölkələri də adlandırılan bu inkişaf etmiş ölkələr əvvəlcə 38 dövlətdən, 13-ü demokratiyaya və bazar iqtisadiyyatına keçiddə olan Şərqi Avropa dövlətləri və Avropa İttifaqından ibarət idi. Bu dövlətlərin hamısı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) aiddirlər.

**COP29-un ölkəmizdə keçirilməsini zəruri edən şərtləri:**

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözü və imzası bir olan şəxsiyyət kimi tanınması;

- ölkəmizin Avropa dövlətlərinin enerji təhlükəsizliyinin təminatçısı kimi çıxış etməsi;

- iqlim dəyişikliyi ilə bağlı çətinliklərin qarşısının alınmasında ölkəmizin fəal iştirak etməsi və s

COP29-un elmi-praktik əhəmiyyəti aşağıdakılardan ibarətdir:

-atmosferə buraxılan istixana qazlarının qarşısını almaq üçün elm mərkəzlərinin bir araya gətirilməsi;

- ekosistemlərin strukturunun pozulmasına təsirlə bağlı elmi müzakirələrin aparılması;

- ölkələrin tətbiq etdikləri elmi yenilikləri öz aralarında bölüşməsi;

- atmosfer emissiyalarının azaldılması üçün yeni texnologiyaların tətbiqi sahəsində təcrübə mübadiləsi;

- atmosfer emissiyalarının azaldılması üçün daha mütərəqqi elmi yolların seçilməsi və s.

COP29-un siyasi əhəmiyyətini isə aşağıdakıları aid etmək olar:

-ölkəmizin beynəlxalq aləmdə böyük nüfuz sahibi olması;

- iqtisadiyyatımız və hərbi potensialımızın güclü olması;

- beynəlxalq hüququn aliliyinə sarsılmaz inam və bağlılığın olması;

- tədbirin Qoşulmama hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğuru olması;

- Azərbaycanın suveren hüquqlarının bərpası naminə xarici qüvvələrə tariximizə əsaslanan tutarlı və məntiqli cavabı.

Eyni zamanda Azərbaycanı dünyaya daha yaxından tanıdan iqtisadi göstəricilər bunlardır:

-Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyin ifadəsi və buna uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi;

-2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji payının Azərbaycanda 30 faizə çatdırılmasının planlaşdırılması; ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialının quruda 135, dənizdə 157 qiqavat qiymətləndirilməsi və s.

Beləliklə, konvesiyanın ali məqsədi iqlim sisteminə insanlar tərəfindən edilən və təhlükəli hesab oluna bilən bütün müdaxilələrin qarşısını almaqdır(2).

Bunun üçün də, xüsusi tədbirlərin keçirilməsi, məktəb şagirdlərinin və digər müəssisə və təşkilatlarının, eyni zamanda bütün təhsil ocaqlarının bu məsələlərlə tanış edilərək cəlb olunmalıdırlar. Bütün bunlar şagirdlərin, xüsusilə ibtidai sinif şagirdlərinin ekoloji tərbiyəsinin formalaşdırılmasında mühüm rol oynayır.




**İbtidai sinif şagirdlərin ekoloji mədəniyyətinin formalaşdırılması**

Ekoloji cəhətdən savadlı insan dərk etməlidir ki, təbiət də onun özü kimi canlıdır. Təbiət güclüdür, ancaq bu güc tükənməz deyil. Bu baxımdan təhsil ocaqlarında ekoloji təhsilin gücləndirilməsinin tərəfdarları hesab edirlər ki, uşa-

ğa kiçik yaşlarından təbiətə qayğı ilə yanaşmanı aşılamaqla biz onun şəxsiyyətinin formalaşmasına ciddi təkan vermiş oluruq. Başqa sözlə, yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri də məhz ekoloji təhsil və tərbiyə olmalıdır. Bu yolla gənclərə doğma torpağı və təbiəti sevməyi, ətraf mühitə biganəlikdən qaçmamağı aşılaya bilərik (3).



Şagirdlərdə ekoloji məsuliyyət özünənəzarət, özünün hərəkətlərinin ətraf mühitə təsirinin yaxın və uzaq nəticələrini görmək qabiliyyəti, özünə və başqalarına tənqidi yanaşmaq və s. ilə bağlıdır. Təbiətə münasibətlə əlaqədar əxlaqi tələblərə riayət edilməsi mümkün cəzaya görə qorxu və ətraf mühit tərəfindən məzəmmət deyil, möhkəm etiqadın inkişafını göstərir.

Ekoloji tərbiyənin əsasında ibtidai siniflərdən başlayaraq uşaqları təbiətə məftunluq, gözəlliyini dərk etdirməklə yanaşı, ətraf mühiti – torpağı, suyu, atmosferi, flora və faunanı mühafizə etmək istiqamətində formalaşdırmaq durur.

Ekoloji tərbiyə prosesində məktəblilər doğma torpaq, doğma yurd, vətən haqqında, onun təbiəti haqqında geniş məlumat alır, onun qorunmasında üzərlərinə çoxsaylı vəzifələrin düşdüyünü dərk edirlər.

**Cop 29 tədbirinin təşkili ibtidai sinif şagirdlərinin ekoloji tərbiyəsinə təsiri.** Məktəblilərin ekoloji tərbiyəsində ekoloji tarazlığın mahiyyəti haqqında məlumatın verilməsi vacib məsələlərdən biridir. Eyni zamanda şagirdlərdə bu istiqamətlərdə işlərin aparılması ilə bağlı məlumatlar verilməsi, təbiətin qorunması üçün aparılan işlərlə tanış edilməsi vacib hesab olunur. Bu mövzuda müxtəlif maarifləndirici tədbirlərin keçirilməsi ibtidai sinif şagirdlərinin ekoloji tərbiyəsinin inkişafına böyük təsir edir. Hazırda bütün təhsil ocaqlarında Cop29-un mahiyyəti, məqsədi və əhəmiyyəti barəsində geniş söhbətlər aparılır. Atmosferə buraxılan istixana qazlarının qarşısını almaq üçün elm mərkəzlərinin bir araya gətirilməsi, ekosistemlərin strukturunun pozulmasına təsirlə bağlı elmi müzakirələrin aparılması, ölkələrin tətbiq etdikləri elmi yenilikləri öz aralarında bölüşməsi məqsədi daşıyır. Atmosferin və ümumiyyətlə, təbiətin qlobal çirklənməsinin qarşısının alınması üçün zəruri hesab olunan tədbirlərin keçrilməsinin məktəblilərin ekoloji tərbiyəsinin inkişafına bir başa təsiri vardır. Yaşıl dünyamız naminə dünya dövlətləri birləşərək yeni tədbirlərin görülməsi, qlobal vəziyyətlə bağlı birlik yaradıb problemin həlli yollarının tapılması, şagirdlərdə bu işlərin davamçısı olmaq kimi həvəsin yaranmsına gətirib çıxarır. “Hər şey mənlə başlıyır”, “ Mənim dünyam mənim evimdir”, “Təbiəti qoruyaq” kimi şüarlar altında şagirdlərdə təbiətin bizə bəxş etdiyi nemətləri qorumağı, onlara qayğı göstərməyi, təbiətin yaşıl örtüyünün genişləndirilməsi istiqamətində biliklərin formalaşdırılmasını təmin etmək lazımdır.

COP29-un keçrilməsinin təşkili, məktəblilərin həyatında təbiəti sevmək və qorumaq hissinin yaranmasına böyük təsir edir və onların ekoloji tərbiyəsinin formalaşmasında mühüm rol oynayır.

**Problemin aktuallığı.** COP29 tədbirinin təşkili və bu yolda müəyyən zəruri tədbirlərin həyata

keçirilməsi ibtidai sinif şagirdlərinin ekoloji tərbiyəsinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

**Problemin yeniliyi**. Məqalədə ibtidai sinif şagirdlərin ekoloji tərbiyəsinə COP29 tədbirinin keçirilməsinin müsbət təsiri və bu yolda ölkəmizdə gedən fəaliyyətin inkişafı diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə mütəxəssislər və gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. The United Nations Framework Convention on Climate Change./ internet materialı. [Elektron resurs] /– Baku, – 8 September 2021.
2. Məmmədli, O. "Nədir COP29?"/ https://banker.az. – Archived from the original on [Elektron resurs] / – Bakı, – 2024.
3. Bayramova Y. “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır [Elektron resurs] / – Bakı, 8 may 2024

**E-mail:** reyhan.hacizad@mail.ru

**Redaksiyaya daxil olub**: 10.12.2024